# "YAŞAT" Fondunun yaranmasından 4 il ötür

*"YAŞAT" Fondu Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə yaradılıb. Fondun məqsədi şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün müvafiq platforma yaratmaq, bu sahədə şəffaflığı, hesabatlılığın və ictimai nəzarəti təmin etməkdir.*

Dekabrın 9-da Fondun 4 illik fəaliyyətinə dair mətbuat konfransı keçirildi. Konfransda "YAŞAT" Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov hesabat xarakterli təqdimatla çıxış edərək, Fond tərəfindən müvafiq istiqamətlərdə şəhid ailələri və qazilər üçün həyata keçirilən dəstək tədbirləri, reallaşdırılan layihələrə dair statistik məlumatlar verdi. Bildirdi ki, "YAŞAT" Fondu tərəfindən 4 fəaliyyət istiqaməti üzrə xərclənən ümumi məbləğ 86 762 869.26 manatdır. Fonda daxil olan 285 868 müraciətdən 237 738-i çağrı, 5 521-i qəbul və 42 609 sosial media vasitəsilə cavablandırılıb. 2020-2024-cü illərdə qeydə alınan müraciətlərin faiz bölgüsü müalicə və psixoloji dəstək xərclərinin qarşılanması üzrə 77.1 faiz, məişət şəraitinin yaxşılaşdırılması üzrə 17.8 faiz, təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafı üzrə 1.9 faiz, istehlak kreditləri və borc öhdəliklərinin qarşılanması üzrə isə 3.2 faiz olub. Məişət şəraitinin yaxşılaşdırılması üçün 5 562 şəhid ailəsi üzvü, 7 037 yaralı, 6 itkin şəxsin ailə üzvü müraciət etmişdir ki, bu istiqamətdə xərclənən ümumi məbləğ 42 245 250 manatdır. İstehlak kreditləri və borc öhdəliklərinin qarşılanması üzrə xərclənən ümumi məbləğ 7 011 408.82 manat təşkil edir. Təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafı üzrə isə 3 528 136.58 manat xərclənib. Həmçinin bu sahə üzrə əməkdaşlıq edilən müxtəlif bağça, məktəb, lisey və təlim-tədris mərkəzləri də var.



Fond tərəfindən bu günə qədər reallaşdırılan 56 layihədə 25 027 nəfər iştirak edib. "Onlar bizə əmanət" layihəsində yeni doğulmuş 120 nəfər şəhid övladının hər birinin zəruri xərcləri üçün müxtəlif vəsaitlər ayrılıb. Eyni zamanda həyata keçirilən layihələrə "YAŞAT" düşərgəsi üzrə 812, "Neftçili yay düşərgələri" üzrə 340, "Hədiyyə karvanı" üzrə 4790, "Məktəbli ləvazimatları" üzrə 4377 iştirakçı qatılıb.

Yay məktəblərinə göndərilən ümumi iştirakçı sayı isə 75-dir. Burada müharibə iştirakçıları övladlarının xarici ölkələrdə, habelə dünyanın aparıcı universitetlərində müxtəlif mədəniyyətlər, ideyalar və dəyərlərlə tanışlıqlarına şərait yaradılıb. "Türkiyə və Azərbaycan sahəvi əməkdaşlığı" layihəsi çərçivəsində iki ölkənin şəhid övladları qarşılıqlı olaraq səfərlərdə, layihələrdə iştirak ediblər, ümumilikdə şəhid ailə üzvlərinin Şuşa səfərinə 59, "Tək millət, tək ürək" layihəsinə 30, Antalya və İstanbulda yay düşərgələrinə 53, Naxçıvanda yay düşərgəsinə isə 44 iştirakçı qatılıb. Xankəndi şəhərində 42 müharibə iştirakçısı övladı Prezidentimizlə xatirə şəkilləri çəkdiriblər.

"1 uşaq, 1 gələcək" layihəsi isə fiziki və hüquqi şəxslərin dəstəyilə müharibə iştirakçısı övladlarının təhsil xərclərinin qarşılanmasını nəzərdə tutur. Layihə çərçivəsində indiyə qədər 19 uşaq öhdəliyə götürülüb.

Konfransda media nümayəndələrinin suallarını cavablandıran Elvin Hüseynov bildirdi ki, daxil olan müraciətlər arasında Fondun fəaliyyət istiqamətinə uyğun olmayanlar da var. Belə ki, əgər müharibə iştirakçısı və ya ailə üzvü bu statusu aldıqdan sonra kredit üçün müraciət edibsə, bu zaman onların sorğusuna müsbət cavab verilmir.

"YAŞAT" Fondunun rəhbəri çıxışının sonunda bu sahədə həyata keçirilən irimiqyaslı islahatlara görə dövlətimizə, həmçinin maarifləndirmə işində yaxından iştirak edən media nümayəndələrinə təşəkkür etdi.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**